**PRESS-RELİZ**

**25 iyun 2021-ci il**

**Məhkəmələr iddianı geri götürülmüş hesab edərkən yerinə yetirməli olduğu vəzifələrə tam əməl etməli, eləcə də məhkəmə iclasının yeri və vaxtı barədə iddiaçıya lazımi qaydada məlumat verməlidirlər.**

***İddiaçı "X" MMC-nin cavabdeh Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsinə qarşı "qərarların ləğv edilməsi" tələbinə dair inzibati iş***

**İşin halları:**

İddiaçı cavabdehə qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək iddiaçının şəxsi hesab vərəqəsinə yazdığı vergi borcuna əsas olmuş vergilərin hesablanmasına dair qərarın ləğv edilməsi barədə qərar qəbul edilməsini xahiş etmişdir.

2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin 2019-cu il 26 sentyabr tarixli qərardadı ilə iddianın geri götürülmüş hesab edilməsi və iş üzrə icraata xitam verilməsi qərara alınmışdır. Məhkəmə iş üzrə icraata xitam verilməsinin əsası kimi iddiaçının 2019-cu il 12 iyun, 11 iyul və 26 sentyabr tarixlərində keçirilmiş məhkəmə iclaslarında üzrlü səbəb bildirmədən nümayəndəsinin iştirakını təmin etməməsini göstərmişdir.

Bakı Apellyasiya Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasının 2019-cu il 27 noyabr tarixli qərardadı ilə iddiaçının apellyasiya şikayətinin təmin edilməməsi, 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin 2019-cu il 26 sentyabr tarixli qərardadının dəyişdirilmədən saxlanılması qərara alınmışdır.

İddiaçıya məhkəmə qərardadı 2021-ci il 29 yanvar tarixində təqdim edilmişdir.

İddiaçı 2021-ci il 1 fevral tarixində qərardaddan kassasiya şikayəti vermişdir.

**Yekun məhkəmə aktı:**

Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati Kollegiyasının qərarı ilə iddiaçının kassasiya şikayəti təmin edilmiş, Bakı Apellyasiya Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasının 2019-cu il 27 noyabr tarixli qərardadı ləğv olunmuş, iş sonrakı prosessual hərəkətlərin edilməsi üçün həmin məhkəməyə göndərilmişdir.

**Məhkəmənin mövqeyi:**

Birinci instansiya məhkəməsi iş üzrə icraata xitam verilməsinin əsası kimi iddiaçının məhkəmə iclaslarında üzrlü səbəb bildirmədən nümayəndəsinin iştirakını təmin etməməsini göstərmişdir. Bununla bağlı "M.Məmmədovun şikayəti əsasında Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 55-ci maddəsinin bəzi müddəalarının Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I hissəsinə uyğunluğunun yoxlanılmasına dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2014-cü il 29 aprel tarixli qərarında göstərilən hüquqi mövqeyinin hazırki işə tətbiqi baxımından məhkəmə kollegiyası aşağıdakıları qeyd etmişdir.

İnzibati icraatın əsas prinsiplərindən olan çəkişmə, işin hallarının hərtərəfli araşdırılması və proses iştirakçılarının dinlənilmə hüquqlarının təmin edilməsi prinsipləri

iş üzrə prosesin tərəflərin iştirakı ilə aparılmalı olduğunu tələb edir və bununla bağlı məhkəmənin üzərinə müvafiq vəzifələr düşür. İstisna hallarda tərəflərin məhkəmə icraatından yayındığı qənaətinə gəlmək üçün kifayət qədər əsaslar olduqda məhkəmə işə onların iştirakı olmadan da baxa bilər. Lakin belə qənaətə gəlmədən əvvəl məhkəmə öz üzərinə düşən vəzifələri yerinə yetirməli və tərəflərin prosesdə iştirakdan yayındığı ilə bağlı qəti fikrə gəlməlidir. Tərəfin prosesdə iştirakdan yayındığı qənaətinə gələ bilmək üçün məhkəmədə elə bir inam formalaşmalıdır ki, tərəfin davranışından artıq görünür ki, o, mübahisə ilə bağlı prosessual marağını itirdiyindən icraatdan yayınır. Buna qədər isə məhkəmə müvafiq tərəfə ondan konkret olaraq hansı prosessual hərəkətlər etməli olduğunu gözlədiyini açıq şəkildə bildirməli, eləcə də, prosesdə iştirak etməmənin doğuracağı hüquqi nəticələr barədə aydın məlumat vermək vəzifəsini yerinə yetirməlidir. Bu isə onu tələb edir ki, tərəflərə ünvanlanan bildiriş məzmun etibarilə göstərilən tələblərə cavab verməli, qanun müddəasının təkrarlanması şəklində formal xəbərdarlıqdan ibarət olmamalıdır.

Qanunverici iddianın geri götürülmüş sayılması haqqında qərardadın qəbulunu bir neçə qayda ilə şərtləndirmişdir. Buna görə, belə qərardadın çıxarılmasından öncə məhkəmə mütləq iddiaçı tərəfə ünvanlanmış onun qaldırdığı iddianın taleyi baxımından ciddi prosessual nəticələrlə üzləşə biləcəyini özündə aydın əks etdirən tələb irəli sürməlidir. Məhkəmənin həmin tələbi iddiaçıya sübut oluna biləcək qaydada çatdırılmalıdır (təqdim olunmalıdır). Yalnız məhkəmənin tələbinin iddiaçı tərəfə çatdırıldığının (təqdim olunduğunun) sübut olunduğu və digər şərtlərin ödənildiyi hallarda iddia məhkəmə tərəfindən geri götürülmüş sayıla bilər.

Məhkəmə kollegiyası qeyd etmişdir ki, hətta iddiaçının məhkəmə iclasları barədə lazımi qaydada məlumatlandırıldığı qəbul edilsə belə, yenə də iş üzrə iddianın geri götürülmüş sayılmasına dair qərardad çıxarılması üçün əsaslar mövcud olmamışdır.

Belə ki, birinci instansiya məhkəməsində iş üzrə məhkəmə iclası 2019-cu il 12 iyun tarixinə təyin edilmişdir. Məhkəmənin bununla bağlı tərəflərə göndərdiyi bildirişin mətnindən görünür ki, orada yalnız məhkəmə iclasının yeri və vaxtı barədə məlumat verilmiş, məhkəmənin iddiaçıdan iş üzrə konkret olaraq hansı prosessual hərəkətlər etməli olduğunu gözlədiyinə dair mövqeyi, eləcə də iddiaçının məhkəmə icraatından yayınmasının doğuracağı hüquqi nəticələr barədə xəbərdarlıq əks olunmamışdır. Ona görə də, məhkəmə həmin bildirişi rəhbər tutmaqla iddiaçıya münasibətdə prosesə gəlməmənin hüquqi nəticələrini tətbiq edə bilməzdi.

Eyni səhvə 2019-cu il 11 iyul və 26 sentyabr tarixlərinə təyin olunmuş məhkəmə iclasları barədə iddiaçıya göndərilmiş bildirişlərdə də yol verilmişdir.

İnzibati Prosessual Məcəllənin 62-ci maddəsində, həmçinin Mülki Prosessual Məcəllənin (MPM) 135-ci maddəsində əks olunmuş normaların məzmunundan göründüyü kimi, tərəflər məhkəmə iclasının vaxtı və yeri barədə qabaqcadan lazımi qaydada xəbərdar olunmalıdırlar və bu onların öz müdafiəsini hazırlamağa və məhkəməyə vaxtında gəlmələrinə imkan yaratmaq üçün zəruri amildir. Tərəflər məhkəmə bildirişi vasitəsilə məlumatlandırılır.

Eyni zamanda, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin hüquqi mövqeyindən də görünür ki, məhkəmə işlərə baxarkən tərəflərin bərabərliyini təmin etməli, bunun üçün tərəflərin bərabər vəziyyətlərdə izahat vermək imkanlarını təmin etməli, bu məqsədlə isə ilk növbədə məhkəmə iclaslarının yeri və vaxtı barədə tərəflər qanunauyğun formada məlumatlandırılmalıdırlar ki, məhkəmədə baxılan işlə bağlı izahatlarını verə bilsinlər. Hazırkı iş üzrə iddiaçıya iclasın vaxtı və yeri barədə məlumat verilməməsi və qərar qəbul edilməsi isə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin də göstərilən hüquqi mövqeyinə ziddir.

Qeyd olunanları ümumiləşdirərək məhkəmə kollegiyası qeyd etmişdir ki, işə birinci instansiya məhkəməsində baxılarkən iddiaçıya göndərilən bildirişlərdə onun hüquq və vəzifələri, məhkəmə iclasına gəlməməsinin hüquqi nəticələri iddiaçıya izah edilməmiş,

apellyasiya instansiyası məhkəməsi isə bu halı qiymətləndirmədən iş üzrə icraata xitam verilməsi barədə birinci instansiya məhkəməsinin qərardadını dəyişdirmədən saxlamışdır. Məhkəmə iclasının vaxtı və yeri barədə tərəflərin məlumatlandırılması yalnız bildirişin qanunauyğun formada tərtib edilməsindən yox, eləcə də həmin bildirişin tərəflərə lazımi qaydada çatdırılmasından ibarətdir. Məhkəmələr məhkəmə iclasının vaxtı və yeri barədə tərəflərə məlumat verərkən həm bildirişin mətnini qanunauyğun formada tərtib etməli, həm də həmin bildirişin proses iştirakçılarına qanunvericilikdə nəzərdə tutulan formada təqdim edilməsini təmin etməlidir.

***Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə tərtib edilmişdir və məhkəmə qərarının tərkib hissəsi olmamaqla, onun qısa mətnini təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş və tərtib edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər. Məhkəmə aktının tam mətni ilə tanış olmaq üçün aşağıdakı linkə keçid edə bilərsiniz**

**(http://sc.supremecourt.gov.az/storage/Inzibat/2021/9_895+18.05.2021.pdf)**

**İşlə bağlı yaranmış əlavə suallara görə Azərbaycan Respublikası Ali Məhkəməsinin Aparatının İnsan hüquqları və ictimaiyyətlə əlaqələr şöbəsinə müraciət edə bilərsiniz.**

**Telefon: 489-07-07 (dax: 18126)**